UOT: 82-3.512.162;398
https://doi.org/10.59849/2409-4838.2026.1.40

# MİLLİ ƏDƏBİYYATIMIZDA QADIN OBRAZLARININ POETİK XÜSUSİYYƏTLƏRİ

**Çinarə Ələşrəf qızı Əkbər**
AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Bakı, Azərbaycan
chinara.akbar96@gmail.com

*Milli ədəbiyyatımızda qadın obrazlarının yaradılması və poetik xüsusiyyətlərinin öyrənilməsi ədəbiyyat tariximiz üçün mühüm əhəmiyyət daşıyır. Azərbaycan ədəbiyyatında qadın surətləri hər dövrdə fərqli poetik çalarlarla təqdim edilmiş, ictimai, mədəni və mənəvi dəyərlərin daşıyıcısı kimi çıxış etmişdir. Klassik poeziyda qadın obrazı daha çox ideal gözəllik, saf məhəbbət və ilahi eşq rəmzi kimi təsvir olunmuş, Nizami, Xətai, Füzuli kimi dahilərin yaradıcılığında yüksək mənəviyyatın və ülvi duyğuların təcəssümü olmuşdur.*

*XIX əsr realist ədəbiyyatında qadın surətləri artıq cəmiyyətin sosial gerçəkliklərini, ənənələrin məhdudiyyətlərini, qadının azadlıq axtarışlarını ifadə etməyə başlamışdır. Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə və digər realist yazıçılar qadın obrazları vasitəsilə maarifçilk ideyalarını, azadlıq və bərabərlik mövzularını ön plana çəkmişlər. Bu mərhələdə qadın surəti həm ailə, həm də ictimai həyatın fəal iştirakçısı kimi təqdim olunmağa başlanmışdır.*

*Müasir dövr ədəbiyyatında isə qadın obrazı daha da zənginləşərək, yalnız sevgi və məişət mövzuları ilə məhdudlaşmır, həm də ictimai-siyasi proseslərdə, milli kimlik və azadlıq mübarizəsində fəal mövqedə görünür. Qadın qəhrəmanların daxili aləmi, emosional dünyası, azadlıq və şəxsiyyət axtarışları bədii yaradıcılığın əsas istiqamətlərindən birinə çevrilmişdir.*

*Beləliklə, milli ədəbiyyatımızda qadın obrazlarının poetik xüsusiyyətləri müxtəlif dövrlərin ideoloji, estetik və sosial tələblərinə uyğun şəkildə dəyişmiş, lakin hər zaman qadının cəmiyyətdəki yerini və rolunu ifadə edən mühüm bədii vasitə olaraq qalmışdır. Bu inkişaf prosesi həm ədəbiyyatımızın zənginliyini göstərir, həm də qadın mövzusunun hələ də aktuallığını sübut edir.*

***Açar sözlər:*** *ədəbiyyat, maarifçilik, qadın obrazı, cəmiyyət, poetik xüsusiyyətlər.*

## GİRİŞ

Ədəbiyyatın hər dövründə mühüm rol oynayan qadın obrazları, Azərbaycan ədəbiyyatında klassik dövrlərdən başlayaraq müasir ədəbiyyata qədər uzanan bir inkişaf xəttinə malikdir. Dövrlə əlaqədar olaraq əsərlərdə qadınların cəmiyyətdəki yeri fərqlənir. Qədim dövr ədəbiyyatında qadınların cəmiyyətdəki aktiv rolu azdır. Bu qadınlar daha çox yaşadığı dövrün qayda-qanunlarına tabe, daha passiv, itəatkar obraz kimi təqdim olunurdu. Ədəbiyyatda qadınların rolu və yeri hər bir xalqın, cəmiyyətin daxilində gedən proseslərlə bağlı dəyişir.

Qadının səviyyəsi, maariflənməsi hər şeydən əvvəl xalqın tərəqqisidir. Bu nöqteyi-nəzərdən cəmiyyətin intellektual cəhətdən yüksəlişində qadının mütləq rolu danılmazdır. Nənələrimiz Azərbaycan tarixinə Tomris, Nüşabə, Mehrican xanım, Tuti Bikə kimi dövlət başçıları, Sara Xatun kimi diplomatlar, Məleykə Könüldaş kimi şairələr bəxş etmişlər. Xalqımızın ruhunu, dilini, adət-ənənəsini qoruyub inkişaf etdirən də məhz qadınlarımızdır.

Azərbaycan qadını, tarixən, azad düşüncəli, təmiz qəlbli, nikbin ruhlu olmuş, mənsub olduğu ailənin, elin-obanın yükünü kişilərlə bərabər paylaşmaqla cəmiyyətin inkişafına önəmli töhfələr vermişdir. Türklərin qadına nəcib münasibətini aydın şəkildə ortaya qoyan “Kitabi Dədə Qorqud” dastanında da qadının cəmiyyətdə tutduğu üstün mövqe özünün real əksini tapmışdır. Burla Xatun, Banu Çiçək, Selcan Xatun kimi qəhrəman qadın obrazları, onların mübariz həyat tərzi, cəsur davranış-

ları cəmiyyətdə qadınların hələ yüz illər bundan öncə kişilərlə bərabər hüquqlara, hətta daha mötəbər statusa malik olduqlarının göstərir.

**ƏSAS HİSSƏ**

Qadın obrazları ədəbiyyatımızda yalnız cinsiyyətin bir ifadəsi deyil, eyni zamanda cəmiyyətin inkişafının, dəyərlərin dəyişməsinin və mübarizənin simvoludur. Hər dövrdə qadınların ədəbiyyatda təsvir olunma şəkilləri, cəmiyyətin onların yerinə olan baxışını əks etdirir. Azərbaycan ədəbiyyatında qadın obrazları müxtəlif dövrlərdə fərqli şəkildə təsvir olunsa da, onların gücü, mübarizəsi və insanlığa verdikləri töhfələr əvəzsizdir. Müasir dövrdə bu obrazların daha da zənginləşməsi, cəmiyyətin inkişafına və qadınların hüquqlarının tanınmasına bir addım daha yaxınlaşdığımızı göstərir.

Azərbaycan qadını öz zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası, yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutub. Dünya mədəniyyəti xəzinəsinə nadir incilər bəxş etmiş xalqımızın mənəvi dəyərlərinin formalaşmasında və inkişafında da qadınlarımızın böyük rolu olub. Eyni zamanda, Azərbaycan qadınları tariximizin bütün dövrlərində xalqımızın taleyüklü məsələlərinin həll edilməsinə öz sanballı töhfələrini veriblər. Onların bir çoxunun adları çoxəsrlik tariximizin səhifələrinə qızıl hərflərlə yazılıb.

**“Kitabi-Dədə Qorqud” dastanında qadın obrazları**

"Kitabi-Dədə Qorqud" dastanı gender münasibətlərini özündə bədii şəkildə əks etdirən söz abidəsidir. Onun boylarında diqqətçəkən əsas məqamlardan biri də ailədə, cəmiyyətdə qadına münasibət məsələsidir. Dastanda qadına dərin hörmət, ana müqəddəsliyi, ər-arvad münasibət3ləri, qadının vəzifələri o qədər gözəl təsvir edilmişdir ki, oxuyarkən xalqımızın necə yüksək mənəvi dəyərlərə malik olduğuna heyran qalırıq.

Dastanın müqəddəməsində qadınlarla bağlı əks olunan fikirlər bütövlükdə türk etnomədəniyyətinin qadına münasibəti kimi anlaşılmalıdır. Əsərdə anaya dərin hörmət və ehtiram vardır. "Ana haqqı, Tanrı haqqı" hesab olunur. Ən hörmətli bir məqamda təsvir olunan qadınların ən dəyərlisi və müqəddəsi yenə də anadır. Eposda Anaya - qadına çox yüksək diqqət, hörmət və ehtiram vardır. Ana obrazları Vətən obrazı kimi ümumiləşdirilir. Burda ANA Vətəndir, namusdur. Ananın toxunulmazlığı ən yüksək zirvədə dayanır. Bu toxunulmazlığını təmin etmək isə hər bir övladın, hər bir oğuzlunun müqəddəs borcudur [5, s. 1].

Əsərdə qadınların zərifliyi şirin bir dillə təsvir olunur. Onlar öz gözəllikləri ilə bütün gözəllikləri üstələyirlər. "Qaragözlü, burma saçlı, əlləri biləyindən xınalı, səlvi boylu, qara saçlı, çatma qaşlı, qoşa badam sığmayan dar ağızlı" bu gözəllər öz mənəvi zənginlikləri ilə də diqqəti cəlb edirlər. Onlar öyünməyi sevmir, vətənpərvərdirlər, öz ərlərinə yoldaşlıq edir, onlara ölənə kimi sadiq qalırlar. Sədaqətli və cəsur, fədakar və mərddirlər. Onlar da at minir, qılınc çalır, sağa-sola qoşa yay çəkir, ov ovlayır, quş quşlayır, qurşaq tutur, düşmənlə savaşırlar. Oz vətənləri, sevgililəri, ərləri, ailələri uğrunda canlarından keçməyə hər an hazırdırlar. Dastanda qadınların öz ərlərinə və övladlarına məhəbbətləri olduqca təsirli verilir. Onlar üçün daim narahatlıq keçirən analar, nişanlı qızlar və bacıların qara bağrı sarsılır, qara qıyma gözləri qan-yaşla dolur. Bütün bunlar olduqca təbii və inandırıcı təsir bağışlayır. Qadınlar övladlarının, qardaşlarının, nişanlı və ərlərinin Vətən və xalq qarşısındakı xidmətləri ilə sevinir, onlara güvənirlər [5, s. 2].

Məsələn, Burla xatun qara qılıncını qurşayıb qırx incəbelli qızla ərinin və oğlunun köməyinə gedir; Selcan xatun Qanturalı ilə birlikdə düşmənin qoşununu qırıb çatır; Banuçiçək Beyrəklə at çapır, ox atır, güləşir, on altı illik həsrətə qatlaşır. Dəli Domrulun xatunu onun əvəzinə ölümə razı olur, Səgrəyin xatunu ondan sonra ərə getməyəcəyinə and içir və s. Dastanda qadınların zorla ərə verilməsi hallarına rast gəlmirik. Onlar ancaq "göz açıban gördüyü və könül verib sevdiyi" igidlərə ərə gedirlər. Diqqəti xüsusi cəlb edən məqamlardan biri budur ki, Dədə Qorqud dastanlarında qızlar onlara qalib gələ bilməyən, özlərindən daha güclü olmayan igidlə könül bağlayıb, ailə qurmazlar.

Boyların məzmunundan məlum olur ki, qadının əsas vəzifəsi öz övladlarını düzgün tərbiyə etmək, vətən və xalq üçün gərəkli şəxslər kimi yetişdirməkdir. "Qız anadan görməyincə öyüd al-

maz", "Ata adını yürütməyən xoyrad oğul ana rəhminə doğunca, doğmasa, yey" sözləri gənc nəslin tərbiyəsində anaların üzərinə böyük məsuliyyət düşdüyünü göstərir [5, s. 2].

Eposda qadınlarla kişilər arasında səmimi bir münasibət mövcuddur. Bu səmimiyyət onların bir-birinə müraciətlərində daha aydın ifadə olunur. Qadınlar öz ərlərinə və nişanlılarına "başım baxtı, evim taxtı", "şah, xan, şahbaz igidim", "xan babamın göygüsü"; kişilər isə onlara "səlvi boylum, qara saçlum", "çatma qaşlum", "xan qızı", "qara gözlü yavuqlum", "halalım", "qadınım, dirəyim", - deyə müraciət edirlər.

Oğuz igidləri qadınlara münasibətdə ədəb-ərkan və etik normalara ciddi şəkildə əməl edirlər. Xalq qəhrəmanı Beyrək qadınların otağına iznsiz yaxınlaşmağı belə ədəbsizlik sayır. Dastanda 57 qala alan Alp Ərən müstəsna olmaqla bütün Oğuz qəhrəmanları təkarvadlıdırlar. Bu isə ölkədə çoxarvadlılığın olmadığını, qadına hörmət və qayğı ilə yanaşıldığını göstərən daha bir işarədir [5, s. 1].

"Xalqımızın tərcümeyi-halı" adlandırılan, tariximizin dərin qatlarını özündə əks etdirən "Kitabi-Dədə Qorqud" dastanındakı qadına münasibət və ailə münasibətləri özünün bir çox xüsusiyyətləri ilə bu günümüzdə də aktualdır.

Qədim dövrün ədəbiyyatında qadın obrazları daha çox saf və əxlaqi dəyərlərin mühafizəkarları kimi təsvir olunurdu. Bu qadınlar adətən mükəmməl bir ahəng içində, hər hansı bir cəmiyyətdəki qayda-qanunları yerinə yetirən obrazlar kimi görülürdü. Füzuli və Nizami kimi şairlərin əsərlərində, qadın obrazı yalnız sevgi mövzusunda deyil, həm də cəmiyyətin mənəvi, əxlaqi mövqeyini qoruyan bir növ "gözətçi" kimi təsvir edilirdi. Nizami Gəncəvinin əsərlərində qadınlar sevginin və əxlaqın mütləq simvolları olaraq cəmiyyətdəki ən yüksək etik və mənəvi dəyərləri qoruyur.

Nizami Gəncəvi Şərq ədəbiyyatında ilk dəfə qadını ən yüksək zirvəyə ucaldıb layiq olduğu qiyməti verən şairdir. Onun əsərlərindəki surətlərin araşdırılması Azərbaycan milli düşüncəsində tarixən xanımlarımıza münasibətin müəyyən edilməsi baxımından çox önəmlidir. Çünki "Xəmsə"dəki bu obrazlar şairin xəyal dünyasından gəlmir, yaşadığı dövrün reallıqlarından, o dövrə qədər formalaşaraq möhkəmlənmiş ənənələrdən qaynaqlanır. Onlar heyranedici gözəllikləri, mənəvi dünyalarının zənginliyi, dərin zəkaları ilə böyük rəğbət doğururlar. Əməllərindəki saflıq, dürüstlük, nəciblik bu zərif insanların ali keyfiyyətlərindəndir [ 3, s. 2].

Nizami poemalarının qadınlarını birləşdirən ümumi xüsusiyyətlər vardır: zəriflik və gözəllik, zəka və sədaqət, tədbirlilik və səmimiyyət. Əsərlərdə qadının əksər hallarda bir tərbiyəçi, nəsihətçi kimi çıxış etməsi onun analıq funksiyasından irəli gəlir. Şairin qadınlığa hüsn-rəğbəti o qədər böyükdür ki, o hətta mənfi qadın obrazı da yaratmamışdır. Nizaminin qadın obrazları əsasən xeyir işlərdə fəaliyyət göstərir, o dövrdə geniş yayılmış qadın hiyləsi və fitnəsi haqqında təsəvvürlərə qətiyyən cavab vermirlər. Bu isə hər şeydən əvvəl ondan irəli gəlir ki, Nizami qadına bir ana kimi baxır və bu analıq funksiyasını o, qlobal kontekstdə götürür. Nizami poemalarında qadının əksər hallarda bir tərbiyəçi, nəsihətçi kimi çıxış etməsi də məhz onun analıq funksiyasından irəli gəlir. Nizaminin qadın obrazları gözəllik etalonu olduqları kimi, həm də nəciblik, xoş əxlaq, sədaqət simvoludurlar [3, s. 3].

Məlumdur ki, Şərq və Qərb təfəkküründə qadına münasibət erkən inkişaf mərhələsində tamamilə fərqli olub. Belə ki, Şərq uzun əsrlər boyu qadını "örtülü" şəkildə görmək istəmiş və qadını əsasən nəsil artıran varlıq kimi qəbul etmişdirsə, Qərb bu incə məxluqu daha çox "diqqət mərkəzində" saxlamağa üstünlük vermiş və əsasən onu eyş-işrət obyekti kimi təsəvvür edirdi. Göründüyü kimi hər iki halda, mütləq qadın azadlığı arxa planda qalıb. Elmi və bədii əsərlərin əksəriyyətində müəlliflər qadının kişiyə tabeçiliyini hər vəchlə əsaslandırmağa çalışıblar. Xüsusən də Şərq reallığında qadınların davranış və rəftarına uzun illər boyu məhdudiyyətlər qoyulub, cahillik və nadanlığa geniş meydan verilib. Elə məhz buna görə də islam, habelə xristian və yəhudi dinlərindən irəli gələn müəyyən təlimlərə istinad edən şəxslər qadınların həyat tərzinə, dünyagörüşünə təsir göstərmək imkanları əldə edib. Məlumdur ki, Azərbaycan Qərb və Şərq sivilizasiyasının kəsişdiyi nöqtədə yerləşir. Lakin, ölkə əhalisinin əskər hissəsini müsəlmanlar təşkil edən bir məkanda təbii ki, islami dəyərlər daha çox üstünlük təşkil edir. Kişi və qadın münasibətləri Nizaminin əsərlərində humanist ideyalar

işığında təqdim edilir. Onun qəhrəmanları gender ayrı-seçkiliyinə qarşı çıxan, daim özünü təkmilləşdirməyə cəhd edən, nəcib ideyalar uğrunda vuruşan insanlardır. Nizami daim qadın azadlığını təbliğ etmiş, vəsf etmiş, onun qadın qəhrəmanları fəal həyat mövqeyi seçən, kişilərlə bərabər səviyyədə dayanan, hətta, bəzi məqamlarda öz ər və qardaşlarından daha tədbirli və uzaqgörən insanlardır. Nizaminin qadın obrazları ədəbiyyatda yeni bir ənənə formalaşdırmışdı. Onun ədəbiyyata gətirdiyi neçə-neçə yenilikçi ənənələr sırasında ilk diqqəti cəlb edən və böyük hünər hesab edilən qadın-xatun obrazları idi. Nizaminin nadir qələmi ilə böyük sənətdə, söz meydanında Sultan Səncər kimi Süleyman taxtının sahibinə etiraz və üsyan edən, böyük ədəb, mərifət və ədalətlə taxt sahibi olan Şirin, Məhin banu, Nüşabə kimi hökmdar qadınlar, Fitnə kimi nəsihət etməyə qabil qadın obrazları görünməyə, möhkəm-möhkəm yer tutmağa başladı. Nizami Gəncəvinin böyük ustalıqla yaratdığı qadın obrazları və xarakterləri o zamankı ədəbi inkişafda intibah hadisəsi, yenilik, birincilik və hünər idi. Bu obrazların yaradılmasdında "Kitabi-Dədə Qorqud" ənənəsi də təsirsiz deyildi. "Kitabi-Dədə Qorqud"da rast gəldiyimiz qadınlar türk elində ana-qadının möhkəm yerini, sarsılmaz mövqeyini, analıq haqqını təzahür etdirirdi. Bu dastanda, bir xalqın, millətin söz abidəsində Ana haqqına Tanrı haqqı kimi baxılır, "Sərvi boylum, evim dirəyi" kimi müraciətlərlə çağrılır, elin və evin böyüyü, dirəyi kimi hörmət, ehtiram və sevgi bəslənilirdi. Nizami Gəncəvi artıq alimlərin qətiyyətlə dediyi kimi, türk düşüncəli, türk əxlaqlı, türk mənəviyyatlı bir sənətkar idi və belə qadın obrazlarını mükəmməl planda ədəbiyyata gətirməyə də heç bir çətinlik çəkmədi [3, s. 3].

**Orta əsrlərdə qadın obrazlarının xüsusiyyətləri**

Orta əsrlərdə gözəlliyin əksində irfani baxış əsas idi. İnsan, onun gözəlliyinə vurğunluq Füzuli qəzəllərinin canıdır. Bu gözəllik qarşısında aşiqin həsrəti, kədəri, göz yaşı Füzuli qəhrəmanlarının ruhuna hopmuşdur. Füzuli qəhrəmanın məhəbbəti fədakar məhəbbətdir, kədərlidir, acıdır. Çünki, vüsal səadətinə məhrumdur. Füzulinin qadın qəhrəmanı özü aşiq olmurdu. Bu qəhrəman öz daxili ənginlikləri, namusu, ləyaqəti ilə qarşısındakını özünə aşiq edib, sonra aşiqinin məşuquna çevrilirdi. "Leyli və Məcnun" poemasında isə Füzuli, Leylini Nizaminin Leylisindən fərqli olaraq zəmanədən şikayətlənərək, etirazını ardıcıl bəyan edir. Füzuli lirik şair kimi yeni əlavə ricətlərlə Leyli surətinin fəaliyyətinə geniş meydan açdığını özü də qeyd edir. Əsərin bir yerində Leyli və Məcnunun məhəbbət atəşinə daha çox yandığını və tənə oxuna artıq giriftar olduğunu söyləyir. Ancaq əlavə edir ki, sevgilisi heç olmazsa "hicab məhbusu, ağzı bağlı deyil, başqaları ilə danışmaq, səhralara üz tutmaqla dərdini azaldır". O isə daxili aləmini bəyan etmək, səhralara qaçmaq hüququndan da məhrum edilmişdir. Leylinin dörd divar arasında ağlamaqdan başqa imkanı yoxdur.

**XIX əsr ədəbiyyatımızda qadın obrazlarının tərənnümü**

XIX əsrdə ziyalılarımız ədəbiyyatda qadınlarımızı ağıllı, fərasətli, namuslu, ailəsini, təsərrüfatını idarə edən, nəcabətini qoruyan xanımlar kimi təsvir etmişlər. Maarifpərvər şair pedaqoqlarımız S.Ə. Şirvani, H.B. Zərdabi, M.F. Axundov, N.B. Vəzirov, M.M. Nəvvab, M.T. Sidqi, N. Nərimanov, Hüseyn Cavid qadınlarımızdakı qüsurları onların savadsızlığında axtarırdılar. Azərbaycan ziyalıları «Şərqi Rus», «Həyat», «İrşad», «Təkamül», «Tazə həyat», «Tərəqqi», «Səda», «Sədai-həqq», «Sədai-vətən», «İqbal», «Açıq söz», həm Azərbaycan, həm də rus dilində nəşr edilən «Kaspi», «Baku», «Proqress», «Yeni Füyuzat», «Molla Nəsrəddin», «Şəlalə», «İşıq», «Dirilik» və s. jurnallar öz səhifələrində qadın azadlığı, qadının maariflənməsi, milli mədəniyyətin inkişafı və s. məsələləri mərkəzə çəkib təhlil edirdilər [7, s. 227]. Qəzəl, qəsidə, həcv, məddahçılıq zəifləməyə başlamışdı. Əski şerin yuxulaması yenisinin yaranmasına şərait yaradırdı. mövhumatçı, epiqonçu şairlər sıradan çıxırdılar. Romantiklərin əsas mövzuları milli azadlıq ideyaları, bədbəxt adamların hüquqlarının müdafiəsi, xalqın azad gələcəyinin, xüsusən də qadın azadlığının tərənnümü idi.

XIX əsrdə qadın intellektuallarının sayı əvvəlki dövlərə nəzərən daha çox idi. Həmin dövrdə Heyran xanım, Xurşidbanu Natəvan, Fatma xanım Kəminə, Aşıq Pəri və Aşıq Sona kimi qadın şair və sənətçilər var idi. Bu qadınlar əksər hallarda yaxşı iqtisadi vəziyyəti olan ailələrdən idi və bu da onlara ədəbiyyatdan istifadə edərək öz problemlərini dilə gətirməyə və ictimai həyatda fəal iştiraka

imkan verirdi öz əsərlərində bu qadınlar həmin dövrün reallıqlarında tənqidi çətin olan mövzulara – erkən nigahlar və zorakı ərlər kimi sosial məsələlərə toxunurdular [7, s. 220].

Axundovun qadınlar və onların cəmiyyətdəki rolu barədəki fikirləri öz dövrü üçün olduqca yeni və bənzərsiz idi. O, komediyarında təkcə ailəsində söz sahibi olan yox, eyni zamanda kişilərin dominantlığına qarşı çıxan güclü müsəlman qadın obrazları yaradırdı. Bəlkə də, məhz bu səbəbdən bir qrup gənc intellektuallar Axundovun tamaşalarını səhnəyə qoymaq istəyəndə ruhanilər, qəzəblənmiş, hətta bir qrup dindar fanatik teatrın qarşısında toplaşaraq ənənəvi dəyərləri dağıtmaqda ittiham etdikləri intellektuallara etiraz etmişdilər. Lakin Axundov, xüsusilə də Zərdabi və onun çevrəsindəki intellektual ilk milli teatrı yaratmaq uğrunda fəaliyyətə başlaya bildilər. Qadınlar üçün təhsil hüququnu müdafiə edəndə də Axundov ruhanilər tərəfindən oxşar hücumlara və nifrətə məruz qaldı.

Mirzə Fətəli Axundov yəqin ki, müsəlman dünyasında cəmiyyətdə qadının rolunu tənqidi olaraq müzakirə edən ilk intellektual müəlliflərdən biridir. O, indiki Azərbaycan ərazisində ədəbi tənqidi banisi kimi tanınsa da, əsərlərinin bu xüsusiyyəti tarixçilər tərəfindən gözardı edilib. Həm komediyalarında, həm də məqalələrində o, qadınların üzləşdikləri problemlərə-məişət zorakılığı, məcburi nikahlar və uşaq istismarına toxunurdu. Qadınların realist obrazını çəkməklə Axundovun tənqidlərinin hədəfi dini xurafatla yanaşı, sosial və ictimai həyatda ruhanilərin dominatlığı idi [7, s. 281].

XX əsr Azərbaycan realist ədəbiyyatında qadın azadlığı məsələsi dövrün tələblərinə müvafiq daha qabarıq və prinsipial bir şəkildə qarşıya qoyulmuş, qadın gözəlliyi onlarla qiymətli əsər meydana çıxmışdır. Bunu hər şeydən əvvəl, birinci rus inqilabının həyata, ailə münasibətlərinə, insan şüuruna müsbət, oyadıcı təsiri ilə izah etmək lazımdır.

Əli Nəzminin 1915-ci ildə yazdığı "Arvad məsələsi" felyetonundan aydın olur ki, mollanəsrəddinçilər qadın azadlığı uğrunda mübarizəni necə çətin bir şəkildə aparmışlar:

"Hanı o keçən günlər ki, qəzetlərdə bir kəlmə arvad məsələsi yazılan kimi dünyalar dəyirdi bir-birinə. "Lənət dəyənəyi", qarğış bombası tökülürdü qəzet və məcmuələrin və hürriyyəti-nisvan tərəfdarlarının üst-başlarına. Hanı o günlər ki, bir hərf qızların təlimi barəsində yazılanda Bakı qoçuları piştovları götürüb "nöşün-nüşün" deyə-deyə düz sürüb gəlirdilər Tiflisə "Molla Nəsrəddin" idarəsini dağıtmağa [6, s. 200].

Bütün çətinliklərə baxmayaraq, Əli Nəzmi Azərbaycan qadınlarının ağır, işkəncə ilə dolu həyatından təsirli əsərlər yazmışdır. Qadın problemi, ailədə ana tərbiyəsi bunun cəmiyyətə təsiri məsələsi şairin bu dövr yaradıcılığından bir xətt kimi keçir, mütərəqqi planda həll olunur [4, s.200]. Qadın azadlığı mövzusunda yazdığı şeirlərdə Əli Nəzmi daha sadə yolla gedir, aydın, anlaşıqlı təşbehlərə, rəngarəng formalara müraciət edir, zəngin bədii boyalar işlədir. Ə.Nəzminin "Kişilərimiz", "Arvadlarımız", "Qızlarımız", "Bir qızın Molla Nəsrəddinə ərzi-halı", "Yeddi yaşındakı qızıma", "Qocaldım", "Məsləhət", "Evlənməz idim" əsərlərində azyaşlı qızların zorla ərə verilməsi, çoxarvadlılıq, qadın əsarəti, onun təhsili qayğısına qalmamaq kimi hallar kəskin satira qələmi ilə alt-üst edilir. Şair 1909-cu ildə yazdığı məşhur "A qızlar" şeirində Azərbaycan qadınlarının vəziyyətini məharətlə ümumiləşdirə bilmişdir:

Heyvan kimi çəkdik sizi bazarə, a qızlar
Satdıq sizi hər köhnəyə, kaftarə, a qızlar.
İstəkli vətən gülləri!Sizsiz yaz açılmaz,
Siz elmsizsiz, nuri-məarif də saçılmaz,
Gün çıxmasa zulmati-şəbistan qaçırılmaz,
Sizdən umulur çarə bu azarə, a qızlar!
Həm tərbiyə, təlim uşaqlarə a qızlar!

Onun şeirlərində biz zorla pula satılan azyaşlı qızların şikayətini, ah-naləsini, ürək çırpıntılarını eşidirik [6, s. 201]. Öz yaradıcılıq istedadını əsasən satirik şeir sahəsində göstərən Ə.Nəzmi, eyni zamanda, bir çox maraqlı nəsr əsərləri də yazmışdır. Qadın azadlığı, köhnə adətlərin tənqidi, zəmanəyə, çar üsuli idarəsinə mənfi münasibət, dini təəssübkeşlik əleyhinə çıxışları, yeni təlim qaydaları

və.s. Əli Nəzminin qadın azadlığına həsr etdiyi məşhur “Məsləhət” (1908) satirası mövzsunun aktuallığına, ideya və məzmununa, oynaq formasına görə o zaman böyük şöhrət qazanmış, bu şeirə “Molla Nəsrddin”in təsiri ilə çıxan satirik jurnallarda çoxlu nəzirələr çap olunmuşdur. Ə.Nəzmi Azərbaycan qadınlarının dərd və ələməni, kölə vəziyyətini dərin bir kədər və ürək yanğısı ilə təsvir etmiş, qadın dəllallarını sarsıdıcı kinayə obyektinə çevirmişdir:

Molla, sənə eyləyirəm məsləhət,
Söylə görüm evlənim, evlənməyim?
Altmış sinnim eləyibdir güzəşt,
Bir qız alım, evlənim, evlənməyim?

Qadın və qızlarımızın kölə vəziyyətinə salınmasının əsas səbəbini elmsizlikdə əlim, görən şair, elə bu elmsizliyin çarəsini qadınların özlərində görərək “Sizdən umulur çarə bu azarə, a qızlar” deyir. Qadınların vəziyyətini göstərərək qadınların özlərini bu yolda çıxış nöqtəsi bilir. Çünki, xalqın məişətində, təfəkkür tərzində bir yenilik, dönüş yaratmaq istəyirdi.Qadının savadsızlığı ilə heç cür barışa bilməyən şair, qadınlara üz tutub deyir ki, siz uşaqlara təlim, tərbiyə verənsiz, sizin aqibətiniz axı necə savadsız ola bilər? Ədib əsrin əvvəllərindəki qadının təsvirini özünütəqdimdə verir və həmin savadsız qadınlara məsləhət verərək, çıxış yolunu onların özlərində, savadlanmasında görür [ 6, s. 202].

XIX əsrdə Axundov yaradıcılığında, xüsusilə XIX əsrin 50 ci illərində bir-birinin ardınca yazdığı komideyalarında ədəbiyyata yeni nəfəs gətirdi. Komediyalarda Azərbaycan qadınları avam, sadəlövh təsvir olunsalar da bununla belə mili həyatın və xalqın müsbət adət və vərdişlərinin təcəssümü verilmişdir: Xüsusilə el adətincə qonağa hörmət bəsləmək, böyük yanında həyalı və ismətli dolanmaq, sözübütövlülük, alicənablılıq kimi sifətlər də qadın mənəviyyatının, qadın ləyaqətinin nə qədər önəmli olduğunu canlı və təbii göstərilmişdir.

**XX əsr ədəbiyyatında qadın obrazları**

XX əsrin əvvəllərində Türk dünyasında modernləşmə prosesi sürətləndi. Qadın artıq yalnız ailənin deyil, həm də millətin tərəqqi simvolu kimi təqdim edilirdi. Ədəbiyyatda qadın məktəbə gedən, oxuyan, ictimai tədbirlərdə iştirak edən bir qəhrəman oldu. Bu “avropalaşan qadın” obrazı bəzən idealizə olundu - müəlliflər onu maarifin və tərəqqinin simvolu kimi göstərdilər. Amma eyni zamanda, ənənədən uzaqlaşdığı üçün tənqid edilən obrazlar da yarandı. Beləliklə, qadın obrazı həm ümidlərin, həm də qorxuların əksinə çevrildi. Ədəbiyyatda qadın artıq yalnız fərdi deyil, həm də milli modernləşmənin göstəricisi idi.

XX əsrdə dövrün ictimai-siyasi dəyişiklikləri xalqın dünyagörüşünə, yaşam tərzinə təsir edir və maarifçilik meyilləri güclənir. Xalqın və cəmiyyətin yeni sosial-siyasi mahiyyəti qadına olan münasibəti də dəyişir. Bu hadisələr zəminində ədəbiyyatda da fərdiləşdirmə və tipikləşdirmə prinsipi ilə qruplaşdırılan qadın xarakterlərinin çoxalmasını müşahidə edirik. Nəticədə, daxilən və zahirən gözəl olan ənənəvi qadın obrazları dərin mürəkkəb xarakterlərə çevrilir. Deməli, qadının cəmiyyətdə və ədəbiyyatda arxa planda qalmasının səbəbi, Otto Veyninger vurğuladığı kimi, zəka geriliyi yox, cəmiyyətdəki mentalitet, bərabərsizlik, savadsızlıqdır. Dünya müharibələri və inqilablardan başqa elmi texniki tərəqqi dövrü kimi səciyyələnən XX əsr qadınların taleyini dəyişdirdi. Dünyada və cəmiyyətdə baş verən əsaslı dəyişmələr yeni tipli oxucu və müəlliflərin formalaşmasına yol açır. Əsrin əvvəllərində daha çox qəddarlıqla, etinasızlıqla, kobudluqla üzbəüz qalan qadın tolerantlığın qəbul olunduğu müasir bir zamanda cəmiyyətin aparıcı qüvvəsidir.Əsrin əvvəllərində savadsızlığın, stereotiplərin, yalançı din xadimlərinin düşüncəsiz görüşlərinin qurbanına çevrilmişdi. Burada ilk planda gerçəkliklər təqdim olunur, sonda isə müəllifin qadın hüquqsuzluğuna etirazı özünü doğruldur.Bir tərəfdən müəllif qadının hüquqsuzluğuna etiraz edirsə, digər tərəfdən bir sıra obrazlar vasitəsilə qadının tam sərbəstliyini müəyyənləşdirir. Belə olduğu halda, biz müəlliflərin də mövqelərinə əsaslanaraq buradakı qadın tiplərini iki qismə bölə bilərik:

a) Ailəsinə, övladına, bağlı olan, lakin azadlığı əlindən alınmış qadınlar.
b) Arzularını, qiymətlərini digər cinsdə axtaran, reallaşdıran qadınlar

Birinci tip qadınların halından doğan kədəri tənqidi realist poeziyanın M.Ə.Sabir, Ə.Nəzmi, Ə.Qəmküsar, C.Cabbarlı kimi nümayəndələri yalnız Fatmanın, Tükəzbanın yaşantıları kimi deyil, cəmiyyətin məzmununda verərək ümumxalq yaşantısına çevirmişlər.

Müəllif Nağdı bəy və Sonya arasında qurulan əlaqəni mənalandıraraq bədii ümumiləşdirmə ilə təqdim edir və onu ictimai mətləblərin ifadəsinə yönəldərək fikrin konkretləşməsi, Tükəzban və Fatmalara qarşı məqsədin açılması üçün zəmin yaradır.

Kim Tükəzbanla otursa,evdə bir gün görməyir,
İşvə bilməz, qəmzə bilməz, eyşüişrət bilməyir,
Maryanın nazilə gülmür, həm bizi güldürməyir,
Biz də kamə, ay Baba, çatsaq, qiyamətmi qopar?

Cəfər Cabbarlı hekayələrinin əksəriyyətini qadın adları ilə adlandırmışdır. Bu təsadüfi deyildir. Belə ki, ədibin hekayələrinin əsas mövzusunu qadın azadlığı, Azərbaycan qızının səhnəyə gətirilməsi, qızların təhsildən uzaqlaşmasının qarşısının alınması, qadınların acı həyatı, qadın çarəsizliyi təşkil edir. Yazıçı azərbaycanlı qızları təhsilli, azad, öz qərarlarını özləri verə biləcək və özlərini qoruya biləcək durumda görmək istəyirdi və bunun üçün də qadınlara öz əsərləri vasitəsilə bunun yollarını göstərirdi.

"Azərbaycan qadınlarının düşdüyü uçurum, əhatə olunduğu bataqlıq belə dərin və qaranlıq idi. C.Cabbarlının qadın qəhrəmanları - Gültəkin, Firəngiz, Gülzar, Dilbər bu acınacaqlı həyatın yolçuları idilər [1, s. 7].

"Almaz" dramı da qadın obrazlarının ictimai funksiyası baxımından önəmlidir. Almaz müəllimədir və kənddə maarifçiliyi təbliğ edir. O, kişilər tərəfindən təhdid olunur, lakin geri çəkilmir. Almaz cəsarətli, maarifçi və idealist qadın obrazı kimi təsvir olunmuşdur. O, cəmiyyətin patriarxal təbəqəsinə qarşı ideoloji müqavimət göstərir. Almaz obrazı qadınların ictimai fəaliyyətə cəlb olunmasının vacibliyini vurğulayır. Əsər qadın iradəsinin gücünü, savadın və biliyin cəmiyyət üçün əhəmiyyətini ortaya qoyur. Almaz obrazı həm də müəllifin maarifçilik ideyalarının daşıyıcısıdır və Azərbaycan qadınının yeni simasını təqdim edir.

"Oqtay Eloğlu" dramında da qadın obrazı mühüm rol oynayır. Bu əsərdə xüsusilə Firəngiz obrazı maraq doğurur. Firəngiz cəmiyyətin və ailənin təzyiqlərinə qarşı çıxaraq, azad iradəsini nümayiş etdirən, sevgi və fərdi seçim uğrunda mübarizə aparan bir qadın kimi təqdim olunur. O, ailənin, cəmiyyətin riyakar dəyərlərinə qarşı duraraq öz şəxsiyyətini qorumağa çalışan obrazdır. Firəngizin faciəli taleyi isə cəmiyyətin qadın azadlığına qarşı sərt münasibətini əks etdirir [1, s. 3].

C.Cabbarlının əsərlərində qadın obrazlarının dil və üslub baxımından təhlilindən məlum olur ki, bu obrazların danışıq dili onların təhsili, mədəni səviyyəsi və sosial statusu ilə uyğun gəlir. Məsələn, Gültəkin və Firəngiz kimi qəhrəmanların nitqi fəlsəfi, məntiqli və aydın olduğu halda, ikinci planda olan qadın obrazlarının nitqi daha sadə və gündəlikdir. Bu da müəllifin obrazları fərqləndirmək və onların xarakterlərini daha dolğun vermək bacarığını göstərir. Onların daxili monoloqları, dialoqlardakı durğunluq və gərginlik, dramatik qarşıdurmalardakı ifadələr obrazların daxili aləmini açmağa xidmət edir.

Cəfər Cabbarlı dramaturgiyasında qadın obrazları bədii, ideoloji və psixoloji baxımdan zəngin struktura malikdir. Onun yaratdığı Sevil, Almaz, Gültəkin kimi qadın qəhrəmanlar Azərbaycan qadınının müasir obrazını formalaşdırmaqla yanaşı, cəmiyyətin inkişafında onların rolunu ön plana çəkir. Onlar təkcə bir dövrün qadınlarının deyil, ümumilikdə Azərbaycan qadınının azadlıq mübarizəsinin ədəbi simvoludur. "Almaz" dramı da qadın obrazlarının ictimai funksiyası baxımından önəmlidir. Almaz müəllimədir və kənddə maarifçiliyi təbliğ edir. O, kişilər tərəfindən təhdid olunur, lakin geri çəkilmir. Almaz cəsarətli, maarifçi və idealist qadın obrazıdır. O, cəmiyyətin patriarxal təbəqəsinə qarşı ideoloji müqavimət göstərir. Almaz obrazı qadınların ictimai fəaliyyətə cəlb olunmasının vacibliyini vurğulayır. Əsər qadın iradəsinin gücünü, savadın və biliyin cəmiyyət üçün əhəmiyyətini ortaya qoyur. Almaz obrazı həm də müəllifin maarifçilik ideyalarının daşıyıcısıdır və Azərbaycan qadınının yeni simasını təqdim edir [ 1, s. 2].

Qadın problemi, ailə və cəmiyyətdə qadına munasibət, onun yeri və rolu məsələsi Hüseyn Cavid yaradıcılığından da yan keçməyib. Cavidin elə bir əsəri yoxdur ki, orada qadınla bağlı bu və ya digər məsələyə toxunulmasın. İyirmi iki pyes və bir çox poema və şeirlərin yaradıcısı olan H.Cavidin əsərlərinin bir çoxu qadın adları ilə adlandırılmışdır ("Afət", "Maral", "Şeyda", "Şəhla"və s.).

Qeyd etmək lazımdır ki, Hüseyn Cavidin qadın məsələsinə münasibəti, onun qadın haqqında görüşləri həmişə eyni olmamışdır və onlar zaman keçdikcə müəyyən dəyişikliklərə uğramışlar. Yaradıcılığının ilk dövrlərində qadını əsasən zəif, gücsüz, alçaldılan, təhqir olunan bir məxluq kimi göstərən Cavid, yaradıcılığının sonrakı dövrlərində, qadını öz hüquqları uğrunda mübarizəyə qadirolan bir insan kimi səciyyələndirir.

Məsələn, yaradıcılığının ilk dövrünə aid olan, "Bir qızın fəryadı", "Vərəmli qız" və s. əsərlərində, şair qadını yazıq, bədbəxt, fiziki və mənəvi iztirablar içində bir məxluq kimi təsvir edir. Lakin müəyyən vaxt keçdikdən sonra Cavidin bu məsələyə münasibəti dəyişir və konkret şəkil alır.

Məşhur"Qadın" şeirində o artıq qadının acı taleyini təsvir etməklə, ona mərhəmət hissi ifadə etməklə, kifayətlənmir, onun cəmiyyətdə və ailədə rolu məsələsini ön plana çəkir, diqqəti bu məsələyə yönəldir. Qadın onun nəzərində yeni nəslin tərbiyəçisi, insanlığın anasıdır. O yalnız öz övladlarının deyil, bütün millətin anasıdır. Bunu isə

"Qadın! Ey möhtərəm ənisi bəşər!
Sənsiz öksüz qalırdı çinsi bəşər".

Cavid eyni zamanda qadının təhsil almasını, onun savadlı olması istəyir. Bunu "Qız məktəbində" adlı şeirində qələmə alan sənətkar həmçinin qadınları sadə olmağa çağırır. Onları qızıl, bəzəkdən xilas olmağa, savadlı olmağa səsləyir. Qadının sərvətinin onun mənəvi təmizliyi olduğu bildirir [ 4, s. 231]. H. Cavidin qadın qəhrəmanlarında biliyə və idraka, hakimiyyətə və güclü meyl vardır. Burada şəxsiyyətlə hissiyyatın toqquşması dramatik inkişafa güclü təkan verir və faciə yaranır. Bu mənada H. Cavid dramlarındakı qadın tipləri dünyada, Rusiyada, Şərqdə və Azərbaycanda, o cümlədən də folklordakı qadın tipləri ilə əlaqəli şəkildə öyrənilmişdir.

Beləliklə, H. Cavid dramaturgiyasında qadınların dörd əsas tipi kimi əsas aşağıdakıları qeyd etmək olar: 1. ilahi; 2. iblisanə; 3. cariyə və 4. adi həyatları ilə barışan qadınlar.

1. İlahi tipli qadınlar dünyagörmüş, böyük ürəkli, haqqın qalib gələcəyinə inanan, xeyirxah, barışdıran, sülhpərvər və sevilən olurlar. Onlardan «Ana»da Səlmi ana, «Maral»da Nazlı bacı, Humay, «Topal Teymur»da Dilşad xanım, «Səyavuş»da Firəngiz, «Xəyyam»da Sevda, «Şeyx Sənan»da Xumar, «İblisin intiqamı»nda Sima və b.

2. İblisanə qadınlar məkrli, hiyləgər, xain, ənənədən kənara çıxan, qarşısındakını hərəkətə sövq edən, özünə güvənən, başqasının heysiyyətinə biganə olan, məhəbbət oyunlarında aktivlik göstərən olurlar. «Afət»də Afət, «Peyğəmbər»də Şəmsa, «Səyavuş»da Südabə, «İblis»də Rəna, «Knyaz»da Jasmen və b. belələrindəndir.

3. Üçüncü tipə cariyə tipli rəqqasə qadınlar mənsubdurlar. Belə qadınlar müsiqini, gülü, bahalı daş-qaşı sevir və tez-tez də öz pərəstişkarlarını dəyişirlər. «Uçurum»da Anjel, başqa dramlardakı rəqqasələr bu tipə daxildirlər.

4. Dördüncü tipə adi həyatları ilə barışan qadınlar daxildirlər, «Şeyx Sənan»da Zəhra, Əzra, Nina, «Afət»də Alagöz, Altunsaç, «Knyaz»da Lena, «Xəyyam»da Vəfa, Səfa, «Iblisin intiqamı»nda Ema, Natella və b. Onlara misal ola bilər [ 4, s. 234].

XX əsr Azərbaycan ədəbiyyatında yeni bir yüksəliş dövrünün başlanğıcı kimi yadda qalır.Çünki, bu əsrdə bütün görkəmli ədib və ziyalılar ictimai hərəkat içərisində kütlə üçün mübarizəyə qalxmışdılar.Qabaqcıl ziyalılarımızın belə bir mübarizəyə qalxması, onlar üçün heç də asan olmamışdır. O dövrdə müstəmləkə olan Azərbaycanda mövhumat, məqsədli şəkildə yaradılmış xaos hökm sürürdü. XX əsr Azərbaycan ədəbiyyatında həm romantizmin, həm də tənqidi realizmin inkişaf dövrüdür.1905-1907-ci illər inqilabının, dövrün təzadlarının vəhdətini XX əsr Azərbaycan ədəbiyyatında romantizm və tənqidi realizmdə görmək olur.Məhz belə bir tarixi şərait C.Məmmədquluzadənin realizm metodunu formalaşdırır. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan qadını-

nın vəziyyətini açıb göstərməklə, onları ayıtmaq istəyir.Ümumiyyətlə, XIX-XX əsrlər Azərbaycan qadınının taleyində xüsusi rol oynayır.Bu quruluş C.Məmmədquluzadənin dörd pərdəli "Ər" (1929-1930) komediyasında da ifadəsini tapmışdır. Komediyada müəllif cəmiyyətdəki sosial problemlərin həllindən tutmuş, qadınların taleyinə, onların maarifsizliyinə, eyni zamanda bəzi stereotiplərə nəzər salır.Burada da milli problemlər qadınların taleyi vasitəsilə işıqlandırılır [6, s. 106].

XX əsrin ilk onilliklərinin ədəbiyyatının qadın obrazları üzərində araşdırma apararkən çox maraqlı bir vəziyyətlə rastlaşırırq.Ədəbi-nəzəri düşüncədə belə bir fikir formalaşmışdır ki, realist ədəbiyyata aid obrazlar həyata, gerçəkliyə daha yaxındır, romantik ədəbiyyatın obrazları isə gerçəkdən artıq idealla bağlıdır. XX əsrin romantik və realist dramaturgiyasını müqayisə edərkən şahid olduq ki, tənqidi realist dramaturgiyada (onun aparıcı mövqeyini təmsil edən C.Məmmədquluzadə dramaturgiyasında)qadın obrazı gerçək həyatdakı qadından daha artıq cəmiyyətin problemlərinin yükünü özündə daşıyan işarəvi bədii komponentdir.

XX əsr qadın hüquqsuzluğu mövzusu Mirzə Ələkbər Sabir yaradıcılığında da özünü geniş şəkildə göstərir. Sabir qadınların hüquqsuzluğunu sadəcə təsvir etməklə kifayətlənməyərək, bu məsələyə qarşı aktiv mövqe tutur və oxucularını cəmiyyətdə mövcud olan bu ədalətsizliyə qarşı mübarizəyə səsləyir. Onun şeirləri oxucuda hüquq uğrunda mübarizə ruhu oyadır və onları fərdi məsuliyyət hissinə cəlb edir. Məsələn "Qoyma, gəldi" adlı şeirində qadının simasında cəmiyyətin patriarxal münasibətlərinə etirazını ifadə edir. Sabir burada qadının zorla ərə verilməsini tənqid edir. Onun şikayətləri oxucuya emosional təsir bağışlayır. Sabir qadınların hüquqsuzluğunu sadəcə təsvir etməklə kifayətlənməyərək, bu məsələyə qarşı aktiv mövqe tutur və oxucularını cəmiyyətdə mövcud olan bu ədalətsizliyə qarşı mübarizəyə səsləyir. Onun şeirləri oxucuda hüquq uğrunda mübarizə ruhu oyadır və onları fərdi məsuliyyət hissinə cəlb edir. Məsələn "Qoyma, gəldi" adlı şeirində qadının simasında cəmiyyətin patriarxal münasibətlərinə etirazını ifadə edir. Sabir burada qadının zorla ərə verilməsini tənqid edir. Onun şikayətləri oxucuya emosional təsir bağışlayır [6, s. 143]. O, qadınları yalnız cəmiyyətin deyil, həm də öz fərdi passivliklərinə görə məsuliyyətli sayır. "Xədarə nə şikayətə?" adlı şeirində qadınların avamlığına qarşı da satirik münasibət sərgiləyir. Bu və digər nümunələr Sabirin qadın məsələsinə tənqidi, satirik və maarifləndirici yanaşmasının ifadəsidir. O, qadınların hüquqlarını əllərindən alan dini və sosial strukturları ifşa etməklə yanaşı, qadınların özlərinin də bu vəziyyətdən çıxış yollarını düşünməyə çağırır. Sabir qadının cəmiyyətdəki bu mövqeyini təkcə bədii deyil, eyni zamanda realist və tənqidi mövqedən təqdim edir. O, qadının savadsızlıq və asılılıq şəraitində övladına düzgün tərbiyə verə bilməməsini də ümumi mənəvi və mədəni tənəzzülün bir səbəbi kimi göstərir [6, s. 142].

Sabirin bu mövzuda qələmə aldığı əsərlərində irəli sürdüyü ideyalar yüksək ictimai əhəmiyyət daşıyır, onların təsir gücü isə oxucuda dərin emosional reaksiya doğurur. "Ay nənə, bir qırmızı saqqal kişi", "Gavur qızı", "Qoyma, gəldi", "Çatlayır Xanbacı qəmdən ürəyim" və digər satirik şeirləri qadın məsələsinin bədii həllinə verdiyi töhfələrlə fərqlənir. Bu əsərlərdə Sabir həm dini-məişət stereotiplərinə, həm də kişilərin qadınlara qarşı sərgilədiyi istismarçı münasibətə qarşı çıxır, qadının azad və maarifli bir varlıq kimi yetişməsinin zəruriliyini vurğulayır.

XXI əsr ədəbiyyatında qadın obrazı çoxqatlı və dinamikdir. Müasir yazıçılar qadını eyni anda həm ənənəyə bağlı, həm də qlobal dəyərlərə açıq bir obraz kimi təqdim edirlər. O, ana da ola bilər, ictimai fəal da, professional mütəxəssis də, yaradıcı sənətkar da. Burada maraqlı məqam budur ki, Dədə Qorquddakı qəhrəman qadının ruhu müasir əsərlərdə də yaşayır. Əvvəllər ox və qılıncla mübarizə aparan qadın indi sözlə, elm və mədəniyyətlə mübarizə aparır. Qadının qəhrəmanlığı fiziki gücdən mənəvi gücə çevrilib. O, həm ənənə ilə, həm də müasirliklə uyum içindədir.

## YEKUN NƏTİCƏ

Ümumiyyətlə, tədqiqatımız nəticəsində aydın olur ki, Dədə Qorquddan bu günə qədər qadın obrazı daim dəyişmiş, amma mahiyyət etibarilə qəhrəmanlıq, cəsarət və müstəqillik elementlərini qorumuşdur. Klassik dövr qadını müqəddəs, lakin məhdud simvol kimi göstərsə də, maarifçilik və

modernləşmə dövrü onun sosial tərəflərini açdı. Sovet ədəbiyyatı qadını əmək və ictimai fəaliyyət qəhrəmanı kimi təqdim etdi. Müasir ədəbiyyat isə qadını çoxqatlı, təzadlı, eyni zamanda harmonik və müstəqil fiqur kimi göstərir.

Əslində, bütün bu mərhələlər bir-birini inkar etmir, əksinə, bir-birini tamamlayır. Dədə Qorquddakı alp qadının cəsarəti, XIX əsrin maarifçi qadının azadlıq arzusu, XX əsrin avropalaşan qadının müasirliklə mübarizəsi və bugünkü qadının çoxqatlı kimliyi – hamısı bir bütöv inkişaf xəttinin hissələridir.

Ədəbiyyat bizə göstərir ki, qadın qəhrəmanlıqdan heç vaxt uzaq düşməyib. Yalnız qəhrəmanlıq formaları dəyişib: qılınc indi sözə, at çapmaq isə təhsil və yaradıcılığa çevrilib. Amma ruh eyni qalıb-cəsarət, müstəqillik və insani ləyaqət.

## ƏDƏBİYYAT

1. Abbasova, G. Cəfər Cabbarlı yaradıcılığında qadın emansipasiyası / G. Abbasova. 525-ci qəzet, 2018, - s.7.
2. Babayeva, A. Tarix və ədəbiyyat aynasında qadın obrazları / A.Babayeva. 525-ci qəzet. – 2017. – s. 6.
3. Əliyeva, İ. Əsrlərdən gələn səs / İ. Əliyeva. “Azərbaycan”, - 2021, - s. 4.
4. Əzizova, N. Hüseyn Cavid dramaturgiyasında qadınların tipləri və Cavidin məhəbbət konsepsiyası // “Elm” nəşriyyatı, - Bakı: - 2005. – s. 277.
5. Verdiyev, İ. Kitabi-Dədə Qorqudda qadına ehtiram / İ.Verdiyev. 525-ci qəzet, - 2024. - s. 11.
6. XX əsr Azərbaycan ədəbiyyatı (ali məktəblər üçün dərslik) / M. Cəlal, Hüseynov, F.,-“Maarif” nəşriyyatı, - Bakı: -1982.
7. Qasımzadə, F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi / F. Qasımzadə. “Maarif” nəşriyyatı, - Bakı: - s. 222.

## FEMALE IMAGES IN OUR NATIONAL LITERATURE POETIC FEATURES

**Ch.A. Akbar**

The creation of female images in Azerbaijani literature and the study of their poetic features are important for the history of Azerbaijani literature. In every period of our literature, female images, acting as carriers of social, cultural and spiritual values, are characterized by various poetic shades. In classical poetry, the image of a woman was most often depicted as a symbol of ideal beauty, pure, as well as Divine love, high spirituality and sublime feelings, embodied in the works of such thinkers as Nizami, Fuzuli, Khatai.

In the realistic literature of the 19th century, female images expressed the social realities of society, the limitations of traditions, and a woman's desire for freedom. Mirza Fatali Akhundzade, Jalil Mammadkulizade and other realist writers used female images to highlight the ideas of Enlightenment, freedom and equality. During this period, the woman was presented as an active participant not only in family life, but also in social life.

On the other hand, in modern Azerbaijani literature, female images are becoming richer and richer, not only limited to love and everyday themes, but taking an active position in socio-political processes, the struggle for national identity and freedom. The inner, emotional world, the search for freedom and identity of female heroines have become one of the main directions of artistic creativity.

Thus, in Azerbaijani literature, the poetic characteristics of female images changed in accordance with the ideological, aesthetic and social requirements of different eras, while at the same ti-

me remaining an important artistic means of expressing the place and role of women in society. This process of developing our literature shows the relevance of the women's theme that still exists.

**Keywords**: *Azerbaijani literature, enlightenment, female image, society, poetic features.*

## ЖЕНСКИЕ ОБРАЗЫ В НАШЕЙ НАЦИОНАЛЬНОЙ ЛИТЕРАТУРЕ ПОЭТИЧЕСКИЕ ОСОБЕННОСТИ

**Ч.А. Акбар**

Создание женских образов в азербайджанской литературе и изучение их поэтических особенностей имеют важное значение для истории азербайджанской литературы. В каждый период нашей литературы женские образы, выступая носителями общественных, культурных и духовных ценностей, характеризуются различными поэтическими оттенками. В классической поэзии образ женщины чаще всего изображался как символ идеальной красоты, чистой, а также Божественной любви, высокой духовности и возвышенных чувств, нашедший воплощение в творчестве таких мыслителей, как Низами, Физули, Хатаи.

В реалистической литературе XIX века женские образы выражали социальные реалии общества, ограничения традиций, стремление женщины к свободе. Мирза Фатали Ахундзаде, Джалил Мамедкулизаде и другие писатели-реалисты через женские образы выдвигали на первый план идеи Просвещения, темы свободы и равенства. В этот период женщина была представлена как активная участница не только семейной, но и общественной жизни.

С другой стороны, в современной азербайджанской литературе женские образы становятся все богаче и богаче, не ограничиваясь только любовными и бытовыми темами, а занимая активную позицию в общественно-политических процессах, борьбе за национальное самосознание и свободу. Внутренний, эмоциональный мир, поиски свободы и самобытности женщин-героинь стали одним из основных направлений художественного творчества.

Таким образом, в азербайджанской литературе поэтические характеристики женских образов менялись в соответствии с идеологическими, эстетическими и социальными требованиями разных эпох, в то же время оставаясь важным художественным средством выражения места и роли женщины в обществе. Этот процесс развития нашей литературы показывает актуальность женской темы, существующую до сих пор.

**Ключевые слова**: азербайджанская *литература, просвещение, женский образ, общество, поэтические особенности.*